# Azərbaycan Dövlət Iqtisad Universiteti (UNEC)

**“DİZAYN TARİXİ” fənni üzrə**

**İŞÇİ TƏDRIS PROQRAMI**

**(Sillabus)**

## Tələb olunan dərslik və dərs vəsaitləri

**Əsas ədəbiyyat:**


1. Всеобщая история искусств. В 6-ти т. - М.: Искусство. 2001.
2. Дмитриева Н.А. Краткая история искусств. М., 2004.
3. Мировое искусство. Энциклопедический словарь. М., 2005.
4. Пушнова Ю.Б. Теория и история искусства. Конспект лекций. М., 2006.
5. Сокольникова Н.М. История изобразительного искусства. Учебник для вузов. В 2-х тт. М., 2006.
6. Соколова М.В. Мировая культура и искусство. М., 2007.
7. Рунге В.Ф. История дизайна, науки и техники: учебное пособие. В 2 кн. Кн. 2. М.: Архитектура-С, 2007.
8. Ковешникова Н.А. История дизайна: учеб. М. Издадельство: «Омега - Л», 2011.
9. Rasim Əfəndiyev. Azərbaycan incəsənəti. Bakı, "Şərq-Qərb", 2007, 160 səh. +112 səh. İllüst.
10. Mir-Bağırzadə S.A. İncəsənət tarixi. Dərslik. Bakı, MSA, 2012, 116 səh.
11. İbrahımov T.İ. Təsviri incəsənətin nəzəriyyəsi. Rəssamlıq təmayüllü ali məktəb tələbələri üçün dərslik. Bakı: Ecoprint, 2017, 104 səh.


**Əlavə ədəbiyyat:**


1. Kərimov K., Əfəndiyev R.S, Rzayev N.İ.,Həbibov N.D. Azərbaycan incəsənəti. Bakı, 1992, 344 səh.
2. Эфендиев Т. Изобразительное искусство Азербайджана XIX – начала XX вв. Баку, 1999, 212 с.
3. Сокольникова Н.М. История стилей в искусстве. Учебное пособие. М., 2006.
4. История искусства зарубежных стран. Учебник для художественных вузов. В 4-х тт. – М.: Изобразительное искусство, 2011.
5. Cəfərzadə K. "Təsviri incəsənət" fənni üzrə müəllim üçün metodik vəsait. Bakı. "Bakınəşr", 2016. 56 səh


Hər bir mövzu üzrə müəllimin mühazirə mətnləri və təqdimatları elektron-kabinetə yerləşdirilir. Hər bir mövzu ilə bağlı müəllim əlavə olaraq xüsusi ədəbiyyat təklif edə bilər.

## Fənnin təsviri

"Dizayn tarixi" fənni bakalavr dərəcəsi üzrə dizaynerlərin hazırlığını tənzimləyən ali təhsil müəssisələrində "Dizayn" ixtisası üzrə tədris prosesinin nəzəri kursunda mühüm yer tutur. Bu kurs tələbələrin – gələcək dizaynerlərin – peşəkar təhsilini təmin edən rəsm, təsviri incəsənət, kompozisiya və heykəltəraşlıq kimi fənlərlə sıx əlaqədardır.

"Dizayn tarixi" fənni tələbələri üslubların, janrların, istiqamətlərin və dünya incəsənətinə və dizayna öz təsirini göstərmiş məşhur ustaların yaradıcılığı ilə tanış edir.

Fənndə tələbələrə dizayn tarixi bir çox Avropa ölkələrinin, Amerika, Rusiya və Azərbaycan sənayesində aparılan texniki-iqtisadi inqilabların nəticəsində yeni bədii formaların əmələ gəlməsi, dizayn fəaliyyətini kütləvi istehsal ilə əlaqələndirməsi, onun tarixi bilavasitə memarlıq, təsviri incəsənət, texnika və elm, kulturoloğiya, kommunikasiya əlaqələri, reklam və marketinq, erqonomika tarixinin faktları ilə bağlılığı barəsində tələbələrə zəruri biliklər verilir və bacarıqlar aşılanır.

Fənnin bu cür öyrənilməsi tələbələrə bədii zövqlərini inkişaf etdirməyə və yaradıcılıqları ilə

digərlərində estetik zövq tərbiyə etməyə kömək edəcək.

**Fənnin məqsədi və vəzifələri**

Kursun tədrisində məqsəd dünyəvi bədii proseslərin təkamülü sahəsində əsas biliklərə yiyələnmək, onların mahiyyəti və müxtəlifliyini anlamaq, öz yaradıcılığını düzgün təşkil etmək və ümumi bədii mədəniyyət kontekstində onun yerini anlamaq üçün dünya incəsənəti əsərlərinə baxmaq, anlamaq və onları peşəkarcasına təhlil etmək bacarıqlarını əldə etməkdir.

Fənnin öyrənilməsi nəticəsində tələbəyə Dünya incəsənətinin qədim dövrdən bu günkü günə qədər tarixini, dünya incəsənətinin əsas abidələrini incəsənət, memarlıq və ədəbiyyatın nəzəri əsaslarını, incəsənətin əsas janrlarının, istiqamətlərini, cərəyanlarını və üslublarını araşdırmaq, mədəniyyət və incəsənətə dini sosial-ictimai və iqtisadi proseslərin təsiri haqqında anlayış yaratmaqdır. İncəsənətin tarixini ümumi bəşəriyyətin tarixi ilə sıx, qırılmaz, mürəkkəb proses kimi əlaqələndirmək, müxtəlif xalqların incəsənətində ümumi tendensiyalarına aydınlıq gətirmək, incəsənət əsərlərini təşkil etmək, onların bədii üslublarını və məzmunlarını izah etməkdir. Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- dünyada baş vermiş və bu gün də baş verməkdə davam edən bədii proseslərin və hadisələrin təkamülünün tarixi qanunauyğunluqları və onların müxtəlif ölkələrdə baş verən ictimai-iqtisadi və siyasi hadisələrlə qarşılıqlı əlaqəsini bilmək;
- üslublar, istiqamətlər, məktəblər, onları təmsil edən rəssam və dizaynerlərin adları, onlar tərəfindən yaradılmış əsas əsərləri tanıtmaq;
- dizayn problemlərinin yaranması və müəyyən edilməsini, cəmiyyətin müxtəlif tarixi inkişaf mərhələlərində dizaynın formalaşmasını anlamaq;
- sənaye istehsalı, Avropa ölkələri, Amerika, Rusiya və Azərbaycanda bədii təhsil islahatı sahələrində biliklərə yiyələnmək.

**Fənnin tədris metodologiyası**

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, sərbəst işlərin layihə şəkilində hazırlanması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

**Öyrənmənin nəticələri:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- dünyada baş vermiş və bu gün də baş verməkdə davam edən bədii proseslərin və hadisələrin təkamülünün tarixi qanunauyğunluqlarını;
- müxtəlif ölkələrdə baş verən ictimai-iqtisadi və siyasi hadisələrlə qarşılıqlı əlaqəsini;
- üslublar, istiqamətlər, məktəblər, onları təmsil edən rəssamların adlarını;

- rəssamlar tərəfindən yaradılmış əsas əsərlərin ad və məzmununu;
- dizaynın yaranması haqda nəzəriyyələrini;
- bədii yaradıcılığın dizaynın formalaşmasına təsiri;
- maşın texnikasının yaranmasına təkan verən amillər, icadlar;
- sənaye dizaynın yaranması və inkişafı;
- elmi-texniki yeniliklər və icadlar;
- XX əsrin əvvələrindən bu günə kimi dizayn sahələrində formalaşmış bədii üslubların xüsusiyyətlərini;
- ilk dizayn məktəblərin yaranması və fəaliyyətləri;
- postsənaye dizaynının müasir həyatla bağlılığı.

**Bacarmalıdırlar**:

- incəsənət nəzəriyyələrində olan müxtəlif yanaşmaları fərqləndirməyi;
- incəsənət sahələrində formalaşmış üslublar, istiqamətlər, məktəblər, onları təmsil edən rəssamların adları, onlar tərəfindən yaradılmış əsərləri fərqləndirməyi;
- incəsənət əsərlərini növ-janr mənsubiyyəti, üslubiyyat, müəllif dəsti-xəttininə görə fərqləndirməyi bacarmalı;
- əsərin məzmunu və ideyasını peşəkarcasına “oxumalı” və rəy bildirməli;
- dizayn nəzəriyyələrində olan müxtəlif yanaşmaları fərqləndirməyi;
- dizayn sahələrində formalaşmış üslublar, istiqamətlər, məktəblər, onları təmsil edən dizaynerlərin adları, onlar tərəfindən yaradılmış əsərləri fərqləndirməyi;
- incəsənət əsərlərini növ-janr mənsubiyyəti, üslubiyyat, müəllif dəsti-xəttininə görə fərqləndirməyi bacarmalı; əsərin məzmunu və ideyasını peşəkarcasına “oxumalı” və rəy bildirməyi bacarmalı.

**Prerekvizitlər** Yoxdur.

**Fənnin mühazirə mövzuları**

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:

12. . İncəsənətə giriş. İbtidai dövr incəsənəti
13. Qədim dünya incəsənəti
14. . Qərbi Avropanın incəsənəti -
İntibah dövrü 4 XVII əsr - XVIII əsr Qərbi
Avropa incəsənəti

5. XIX əsr Qərbi Avropa incəsənəti
6. XX əsrin astanasında Avropa incəsənəti
7. Azərbaycan incəsənətində dekorativ-tətbiqi sənətin xüsusiyyətləri
8. XX əsr Azərbaycan təsviri snətinin inkişafı
9. Dizaynın yaranması. Dizayn incəsənət sistemində - Alman Verkbundu
10. Bauxauz və onun dünya dizayn inkişafına töhfəsi
11. Vxutemas – sovet dizayn məktəbi
12. ABŞ-də sənaye dizaynın təşəkkülü
13. Reqional dizayn. XX əsrin ikinci yarsında Almaniya, İtaliya və Skandinaviya ölkələrində dizayn

14. XX əsrin müasir incəsənəti və dizaynı

15. Dizaynın müxtəlif sahələrində innovativ yeniliklər

**Fənnin mühazirə mətnləri**

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri və sualları elektron formada hazırlanıb və UNEC-in müəllim kabinetində yerləşdirilib. Fənn üzrə suallar bu mətnlərdən tərtib edilib.

**Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Mühazirə tarixi |
|---|---|---|---|
| 1 | **İncəsənətə giriş. İbtidai dövr incəsənəti** | İncəsənət reallığı estetik şəkildə mənimsəyərək dünyanı özünəməxsus səkildə tanımaqdır. İncəsənətin funksiyaları. Təsviri incəsənətin və memarlığın növləri. Boyakarlıq ,heykəltaraşlıq, qrafika. Rəsimin janrları. İbtidai dövr incəsənəti və onun əasas xüsusiyyətləri. Meqalitik istehkamların növləri. mengirlər, dolmenlər, kromlexlər. | |
| 2 | **Qədim dünya incəsənəti** | Qədim Misir,Yunanıstan və Roma incəsənəti və onların müxtəlif inkişaf mərhələləri və əsas xüsusiyyətləri. Misirdə qədim, orta və yeni padişahlıq dövr incəsənəti. Yunanıstanda orden sistemi,onun konstruktiv obrazlı quruluşu.Ellinizim incəsənəti. Qədim Roma incəsənətinin əhəmiyyəti. Roma memarlıq orderləri.Yeni konstruksiya və materiallar,yeni növ tikintilər. | |
| 3 | **Qərbi Avropanın incəsənəti - İntibah dövrü** | Roman incəsənəti (XI-XII əsrlər). Bu incəsənətin umumi xarakteristikası. Qotik incəsənəti və onun əsas göstəriciləri. Qotikanın dövrüləşdirilməsi. İtalyan intibahı. Erkən intibah incəsənəti. Bu dövrdə dahi adlandırılan rəssamların yaradıcılığları. Davinci, Rafael Santi, Tisian, Mikelanjelo. | |
| 4 | **XVII əsr - XVIII əsr Qərbi Avropa incəsənəti** | Bu dövrün tarixi xarakteristikası. Barokko və klassisizm. Aparıcı mili məktəblər. Flamand məktəbinin nümayəndələri. | |

| | | | |
|---|---|---|---|
| **5** | **XIX əsr Qərbi Avropa incəsənəti** | Rokoko və neoklassisizm üslublarının xarakterik xüsusiyyətləri. Sentimentalizmin yaranması.Venesiya rəssamlıq məktəbi. | |
| **6** | **XX əsrin astanasında Avropa incəsənəti** | Modernin yaranma səbəbləri. XX əsr Qərb avanqard incəsənətində formalaşmış əsas cərəyanlar<br>1. Abstraksionizm<br>2. Sürrealizm<br>3. Ekspressionizm<br>4. Dadaizm<br>5. Fovizm<br>6. Kubizm | |

| | | | |
|---|---|---|---|
| **7** | **Azərbaycan incəsənətində dekortiv-tətbiqi sənətin xüsusiyyətləri** | Dekorativ-tətbiqi incəsənət sahələrinin inkişaf tarixi. Azərbaycanda xalçaçılığın inkişaf tarixi. Azərbaycan xalçalarının bədii kompozisiyasında rast gəlinən ornamentlər. Xovlu və xovsuz xalçaların xarakteristikası. Azərbaycan xalçaçılıq məktəbləri. XX əsrdə xalçaçılığın inkişafı. XX əsr Azərbaycan xalçaçılıq sənətinin inkişafında milli rəssam Lətif Kərimovun yaradıcılığı | |
| **8** | **XX əsr Azərbaycan təsviri sənətinin inkişafı** | Azərbaycanda təsviri sənətin inkişafı.Boyakarlıq sənəti. Q.Xalıqov, T.Tağıyev, M. Abdullayev yaradıcılığı.<br>T.Salahov və S. Bəhlulzadə yaradıcılığı A.Cəfərov, R.Babayev,V.Səmədova yaradıcılığı | |
| **9** | **Dizaynın yaranması. Dizayn incəsənət sistemində - Alman Verkbundu** | Dizayn anlayışı. "Dizayn" sözünün mənşəyi və mənası. Dizaynın inkişafının əsas mərhələləri. Verkbundun fəaliyyəti. Münhendə Verkbund (Alman Sənaye İttifaqı) müəssisəsi (1907) və onun təşəbbüsçüləri. | |

| | | | |
|---|---|---|---|
| 10 | **Bauhauz və onun dünya dizayn inkişafına töhfəsi** | Bauhauz (1919-1933) – Avropada yeni bədii hərəkat mərkəzi. Bauhauzun ilk manifesti (1919). Bauhauzun rəhbərləri: V.Qropius (1919-28), H. Mayer (192830), Lüdviq Mis Van der Roe (1930-33). Bauhauzun pedaqoji kollektivi. Təlimatçı-sənətkarların tədrisə cəlb edilməsi. Tədris və təhsilin demokratik xarakteri. Forma təşkilinin sosial əsaslarının müəyyən edilməsində Bauhauzun realizm və utopizmi | |
| 11 | **Vxutemas – sovet dizayn məktəbi** | Vxutemasın (1920-1930) memarlıq, pedaqoji və sənaye fakültələri. V.Tatlin tərəfindən məişət əşyasının bədii quruluşu metodologiyasının hazırlanması və onun təhsilə daxil edilməsi. İ.Joltovski, N.Ladovski, İ.Qolosov, K.Melnikov və A.Rodçenkanın emalatxanaları. Vxutemas layihələrində interyer, mebel, geyim və parçalar | |
| 12 | **ABŞ-də sənaye dizaynın təşəkkülü** | ABŞ-də dizaynının yaradılması və inkişafında sənətkarların yaradıcılıq fəaliyyəti. Yeni inşaat texnologiyalarının mənimsənilməsi. Stayling. Müstəqil dizayner firmalarının təşkilatı strukturu və fəaliyyət növləri. Funksional prinsip | |
| | | üzrə dizayner fəaliyyətlərinin bölüşdürülməsi | |
| 13 | **Reqional dizayn. XX əsrin ikinci yarsında Almaniya, İtaliya və Skandinaviya ölkələrində dizayn** | Regional dizaynın xüsusiyyətləri. İtalya dizaynın istehsalda yeni metodların tətbiqi kimi. “Olivetti üslubu” nun formalaşaraq dünya avanqard dizaynına təsiri. Skandinaviya dizaynın xarakterik xüsusiyyətləri.“Braun stil” və “Bocsh” firmalarının sənaye üslubu. “Yeni alman üslubunda” təcrübi istiqmətlər. | |
| 14 | **XX əsrin müasir incəsənəti və dizaynı** | Pop-art XX əsr incəsənətinin ən parlaq hadisəsi kimi. Dizaynerlərə əhəmiyyətli təsir göstərmiş hay tek üslubu. Hay tek dizaynda materialın estetikasını təbliğ edən üslub kimi. Radikal dizayn – Antidizayn. Futurizm istiqamətinin müəyyənləşməsi. Cəmiyyətində postmodern hökm sürən müasir hərəkat kimi | |
| 15 | **Dizaynın müxtəlif sahələrində innovativ yeniliklər** | | |

| Yekun | 30saat |
|---|---|
| Final imtahan | |

**Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) mövzu üzrə verilən praktik tapşırıqları yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.
6) Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları aktivlik və ara qiymətləndirmə ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal seminar dərslərində alınan ballar əsasında formalaşır.
7) Hər semestrin əvvəlində bakalavrlara təqdim edilən sillabuslarda hər bir fənn üzrə aktivlik balının necə formalaşması qaydası göstərilir.
8) Seminar dərslərində qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir.
9) Seminar dərslərində alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:
10) B = (((b1+b2+b3+...+bn)/s)*m)/10
11) Burada,
12) B - yekun aktivlik balı;
13) b - seminar dərslərində alınan müxtəlif ballar;
14) s - semestr ərzində verilən cavabların sayı;
15) m - aktivlik balına ayrılan maksimal bal;
16) 10 - bir seminar dərsində toplanan maksimal baldır.
17) Bakalavr semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.
18) Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrlara cavab verməsi üçün imkan yaradır.
19) Bakalavr semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən "0" bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə "0" bal hesab edilir.
20) Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

**Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

## Yekun imtahan

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal) qiymətləndirilə bilər. İmtahan test qaydasında təşkil olunur. Fənn üzrə imtahan testləri mühazirə mətnləri və məşğələ dərslərinin məzmununa uyğun olaraq tərtib edilir.

İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

## Fənn üzrə yekun qiymətləndirmə

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Cari və aralıq qiymətləndirmələrin hər biri 50 bal üzərindən aparılır. Cari qiymətəndirmə aktivlik balı və ara imtahanı əsasında, aralıq qiymətləndirmə isə sessiya imtahanı əsasında formalaşır.

**Ara qiymətləndirmə** - hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada yazı üsulu ilə 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə suallar təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Ara imtahanlar zamanı hər bir fənn üzrə təhsilalnlara 30 sual təqdim olunur. Qiymətləndirmə zamanı hər bir tələbəyə cəmi 30 dəqiqə vaxt verilir.

Ara imtahanlar üzrə üzrlü imtahanları (online imtahanlarda texniki problemi yarananlar da daxil olmaqla) 11-ci tədris həftəsi ərzində eyni qaydada keçirilir. Apellyasiya müraciətlərinin cavablandırılması isə ümumi qaydada (fakültə imtahan komissiyalarının təşkilatçılığı ilə) təmin edilir. Bu imtahanlar üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

## Dərsə_davamiyyət

Bakalavriat səviyyəsi üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

***Aralıq qiymətləndirmə*** - yazılı üsulu ilə distant və ya ənənəvi (imtahan zallarında) formada keçirilən sessiya imtahanı əsasında formalaşdırılır. Bu halda təhsilalnların

qiymətləndirilməsi 50 bal üzərindən həyata keçirilir. Bu qiymətləndirmə zamanı fənlər üzrə sualların məxfiliyi, habelə imtahan müddətləri UNEC Elmi Şurası tərəfindən təsdiq edilən müvafiq siyahıya uyğun olaraq təmin edilir.

Aralıq qiymətləndirilmə ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər. Fənlər üzrə cari və aralıq qiymətləndirmə onların tədris formasından asılı olaraq aşağıdakı qaydada həyata keçirilir:

Tədrisi ***mühazirə və seminar məşgələləri*** formasında həyata keçirilən fənlər üzrə cari qiymətləndirmənin 20 balı təhsilalanların aktivlik balı hesabına, 30 balı isə ara imtahanı əsasında formalaşdırılır. Aralıq qiymətləndirmə üzrə - 50 bal yazılı üsulu ilə distant və ya ənənəvi (imtahan zallarında)formada keçirilən sessiya imtahanı əsasında formalaşdırılır. Aralıq qiymətləndirmədə tələbə minimum 17 bal toplamazsa, onda aralıq qiymətləndirməyə qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

1

Aralıq qiymətləndirmədən sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Aralıq qiymətləndirmə (sessiya imtahanı) | 50 | 50 % |
| Tələbələrin ara qiymətləndirmənin nəticəsinə görə | 30 | 30 % |
| Seminar (məşğələ) dərslərində aktivliyə görə | 20 | 20% |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə semestr ərzində (aralıq qiymətləndirməyə qədər və aralıq qiymətləndirilmə) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - “qeyri-kafi” – **F**
51-60 bal - “qənaətbəxş” – **E**
61-70 bal - “kafi” – **D**
71-80 bal - “yaxşı” – **C**
81-90 bal - “çox yaxşı” – **B**
91-100 bal - “əla” – **A**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.